# المختصر في صفة الحج (للجمعية)

# Həccin qısa izahı.

# Həccin qısa izahı.

Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur! Peyğəmbərimiz Muhamməddə, onun ailəsinə və bütün səhabələrinə salat və salam olsun!

Daha sonra:

Bu, həcc ziyarətinin edilmə qaydası (sifəti) haqqında qısa bir risalədir. Biz bu risalədə, həcc edən şəxsin ehtiyac duyacağı əsas məsələləri izah etməyə çalışdıq.

Uca Allahdan bu risaləni Özünün mübarək Üzü xatirinə (xalis Onun razılığı üçün) səmimi etməsini və bununla bütün müsəlmanlara fayda verməsini diləyirik!

İslami Məzmun Xidmətləri Cəmiyyətinin Dillər üzrə Elmi Komitəsi.

## Ön söz.

## Birinci: İbadətin qəbul olunma şərtləri:

İbadət, yalnız iki şərtlə Uca Allah tərəfindən qəbul olunur:

İxlas. Bu, ibadəti Allahın mübarak Üzünü (razılığını) və axirət yurdunu qazanmaq məqsəd ilə etməkdir. Uca Allah buyurur:

﴿وَمَآ أُمِرُوٓاْ إِلَّا لِيَعۡبُدُواْ ٱللَّهَ مُخۡلِصِينَ لَهُ ٱلدِّينَ حُنَفَآءَ...﴾"،

"Halbuki onlara, dini məhz Allaha məxsus edərək, həniflər kimi ibadət etmək əmr olunmuşdu"[1]. (Bəyyinə 98 surəsi, ayə 5).

Peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

«إِنَّمَا الْأَعْمَالُ بِالنِّيَّاتِ، وَإِنَّمَا لِكُلِّ امْرِئٍ مَا نَوَى».

"Əməllər niyyətlərə görədir. Hər kəsə yalnız niyyət etdiyi şey vardır".[2]

İbadətdə söz və əməl baxımından Peyğəmbərə, sallallahu aleyhi va səlləm, tabe olmaq. Peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

«مَنْ أَحْدَثَ فِي أَمْرِنَا هَذَا مَا لَيْسَ فِيهِ فَهُوَ رَدٌّ».

"Kim bizim bu işimizdə (dinimizdə) onda olmayan bir yenilik edərsə o, rədd olunar".[3] Hədisi Buxari (1) və Müslim (1907) rəvayət etmişdir. Müslimin bir rəvayətində isə (1718) belə deyilir:

«مَنْ عَمِلَ عَمَلًا لَيْسَ عَلَيْهِ أَمْرُنَا فَهُوَ رَدٌّ».

"Kim (dində) bizim etmədiyimiz (şəriət dəlillərinə istinad etməyən) bir əməl edərsə, o əməl qəbul olunmaz".[4]

***

1 Yəni: Ona və Onun ibadətinə yönəlmək, Ondan başqasından üz çevirmək. (Təfsir Sədi, s. 538).

2 Hədisi Buxari (1) və Müslim (1907) rəvayət etmişdir.

3 Hədisi Buxari (2697) və Müslim (1718) rəvayət etmişdir.

4 Hədisi Müslim (1718) rəvayət etmişdir.

## Birinci: Miqatlarla bağlı hökmlər:

Miqatlar: Peyğəmbərin, sallallahu aleyhi va səlləm, həcc və ya ümrə etmək istəyən şəxsin ehrama girməsi üçün təyin etdiyi məkanlardır.

Beləliklə, hər kim həcc və ya ümrə niyyəti ilə bu məkanların birindən keçərsə, həmin yerdə ehrama girməsi vacibdir və ehrama girmədən oradan keçməsi caiz deyildir.

Məkkəyə miqat məkanlarından daha yaxın olan şəxslər üçün miqat, elə onların mövcud olduqları məkandır. Həcc və ya ümrə niyyəti ilə həmin yerdən ehrama girmələri vacibdir.

Məkkə əhli və orada yaşayanlar, həcc üçün elə Məkkədən ehrama girirlər. Lakin ümrə üçün Tənim və ona bənzər yerlər kimi Haram hüdudlarından kənara çıxaraq, oradan ehrama girməlidirlər.

Təyyarədə olan şəxs, miqat xəttini keçdiyi anda ehrama girməlidir. Buna görə də, miqata çatmazdan əvvəl hazırlaşmalı və ehram libasını geyinməlidir. Miqatı keçdiyi anda dərhal ehrama niyyət etməli və təlbiyəyə başlamalıdır. Ehram niyyətini hava limanına enənədək gecikdirməsi caiz deyildir. Təyyarənin sürətli olması səbəbindən miqat yerini tez bir zamanda ötmək ehtimalını nəzərə alaraq, ehtiyatlı davranmaq və miqata çatmazdan əvvəl niyyət edib təlbiyəyə başlamaq olar.

## İkinci: Həccin növləri və onların hökmləri:

Həcc üç növdür: Təmməttu, İfrad və Qiran.

Təmməttu: Həccin təmməttu növü, qurbanlığı özü ilə gətirməyən şəxs üçün ən əfzəl (ən fəzilətli) növdür. Bu növdə həcc edən şəxs, həcc aylarında əvvəlcə ümrə üçün ehrama girir, təvaf və səy etdikdən sonra ehramdan çıxır. Daha sonra həmin ildə (zülhiccənin səkkizi) həcc üçün yenidən ehrama girir.

İfrad: Həccin ifrad növü, yalnız həcc üçün ehrama girməkdir. İfrad həcci edən şəxs, Məkkəyə çatdıqda Qudum (Məkkəyə gəliş) təvafı etməsi sünnədir. Sonra Həcc üçün Safa və Mərva arasında səy etməlidir, lakin bu mərhələdə saçını nə qırxar, nə də qısaldar, ehramından da çıxmaz. Əksinə, bayram günü Camaratul-Aqəbəyə (Böyük Camarata) daş atıb ehramdan çıxana qədər ehramlı qalar. Əgər həccin səyini, həcc təvafından sonraya saxlayarsa, bu icazəlidir və bunda heç bir qəbahət yoxdur.

Qiran: Həccin qiran növünü edən şəxs, həm ümrə, həm də həcc üçün eyni anda ehrama girərək belə deyir: (لَبَّيْكَ ٱللَّهُمَّ عُمْرَةً وَحَجّاً) [Ləbbeykəllahummə ümratən va həccən] - (Ey Allahım! Mən ümrə və həcc ziyarəti üçün Sənin hüzurunda-yam) – deyir.

Qiran həcci edən şəxsin əməlləri ilə ifrad həcci edən şəxsin əməlləri eynidir. Lakin qiran həcci

edən şəxsə qurban kəsmək vacibdir, amma ifrad həcci edən şəxsə isə vacib deyil.

## Üçüncü: Ehramın edilmə qaydası (sifəti) və onun hökmləri:

Ehrama girmək istəyən şəxsin aşağıdakı əməlləri etməsi şəriətə müvafiqdir:

Qüsul almaq. Bu, həm kişilər, həm də qadınlar, hətta heyz və nifas halında olan qadınlar üçün də təkid olunmuş (təsdiqlənmiş) bir sünnədir.

Kişinin ehrama girməzdən əvvəl başına və saqqalına tapa bildiyi ən gözəl ətirdən, məsələn: ətirli ud yağı və ya başqalarından istifadə etməsi sünnədir. Ehramdan sonra da həmin ətirin bədəndə qalması zərər verməz. Amma qadına, yad kişilərin qoxusunu duymaması üçün iyi olan bir ətirdən istifadə etməsi caiz deyildir.

Ehram geyimini geyinmək. Bu, biri beldən aşağı sarınan izar, digəri isə çiyin üzərinə alınan rida adlı iki parçadan ibarətdir. Sünnə olan isə bu iki parçanın ağ, təmiz və yeni olmasıdır. Qadın isə istədiyi paltarda ehrama girə bilər. Amma bu geyim, qadının zinətini, bədən cizgilərini göstərən və diqqət çəkən geyim olmamalıdır. Lakin qadın ehrama girdikdə niqab (üz örtüyü) və əlcək geyməkdən çəkinməli, üzünü və əllərini başqa bir şeylə örtməlidir.

Ehrama, fərz və ya nafilə namazından sonra daxil olmaq. Lakin bu vacib deyil.

Əgər ömrə və ya təməttu həcci etmək istəyirsə, ehrama niyyət edərək: (لَبَّيْكَ ٱللَّهُمَّ عُمْرَةً) [Ləbbeykəllahummə ümratən] (Ey Allahım! Mən ümrə ziyarəti üçün Sənin hüzurunda-yam) – deyir. Əgər ifrad həcci etmək istəyirsə, ehrama niyyət edərək: (لَبَّيْكَ ٱللَّهُمَّ حَجّاً) Ləbbeykəllahummə həccən] (Ey Allahım! Mən həcc ziyarəti üçün Sənin hüzurunda-yam) – deyir. Əgər qiran həcci etmək istəyirsə, ehrama niyyət edərək: (لَبَّيْكَ ٱللَّهُمَّ عُمْرَةً حَجّاً) [Ləbbeykəllahummə ümratən va həccən] (Ey Allahım! Mən ümrə və həcc ziyarəti üçün Sənin hüzurunda-yam) – deyir.

Ehrama girmək istəyən şəxs, ibadətini tamamlamasına mane olacaq bir çətinliyin baş verməsindən qorxursa, ehrama girərkən belə şərt qoyması caizdir: (... وَإِنْ حَبَسَنِي حَابِسٌ فَمَحَلِّي حَيْثُ حَبَسْتَنِي) [Va in həbsəni həbisun fə məhəlli həysu həbəstəni] (Əgər maneə ilə qarşılaşsam, ehramdan çıxdığım yer məni saxladığı yerdir). Şərt qoyduqdan sonra əgər ona ibadətini tamamlamasına mane olan bir hal baş verərsə, o halda ehramdan çıxa bilər və ona heç bir günah olmaz.

Sonra çoxlu təlbiyə deyir:
(لَبَّيْكَ ٱللَّهُمَّ لَبَّيْكَ، لَبَّيْكَ لاَ شَرِيكَ لَكَ لَبَّيْكَ، إِنَّ ٱلْحَمْدَ وَٱلنِّعْمَةَ لَكَ وَٱلْمُلْكُ لاَ شَرِيكَ لَكَ)

[Ləbbeykəllahummə ləbbeyk, ləb-beykə lə şəriykə ləkə ləbbeyk, innəl-həm-də vən-ni'mətə, ləkə vəl-mulkə, lə şəriykə lək]

"Hüzurundayam, Allahım hüzurunda-yam! Hüzurundayam, Sənin şərikin yoxdur, hüzurundayam! Həmd, nemət və mülk Sənə məxsusdur. Sənin şərikin yoxdur!". Kişi bu təlbiyəni yüksək səslə söyləyir. Qadın da yanında naməhəram kişilər olmadığı müddətcə eyni şəkildə yüksək səslə söyləyir. Ehramda olan şəxs, xüsusilə hal və zaman dəyişdikdə, məsələn: yüksək yerə qalxdıqda, aşağı endikdə, gecə və ya gündüz girdikdə, təlbiyəni çox etməlidir.[1]

Təlbiyə, ümrə ziyarətində ehrama girdiyi andan etibarən təvafa başlayıncaya qədər, həcc ziyarətində isə ehrama girdiyi andan etibarən bayramın ilk günü Camaratul-Aqəbəyə (Böyük Camarata) daş atmağa başlayıncaya qədər demək şəriətə müvafiqdir.

---

[1] Bir insanın: (لَبَّيْكَ) [Ləbbeyk] "Hüzurundayam" sözünün manası. Yəni: Ey Rəbbim! Buyur ey Rəbbim! Təkrar təkrar hüzurundayım - deməkdir. Bunun mənası: İnsanın Rəbbinə cavab verməsi və Onun itaətində sabit qalmasıdır.

(إِنَّ ٱلْحَمْدَ وَٱلنِّعْمَةَ لَكَ وَٱلْمُلْكُ) [İnnəl-həm-də vən-ni'mətə, ləkə vəl-mulkə]

"Həmd, nemət və mülk Sənə məxsusdur". Yəni: Həmd: Bu, tərif olunanın (yəni: Allahın) kamilliklə birlikdə sevgi və təzimlə vəsf edilməsidir. Əgər bu tərif təkrar edilərsə, o zaman "Səna" adlanar. Neymət: Uca Allahın qullarına istədiklərini verməsi və sevilməyən şeyləri onlardan uzaqlaşdıraraq bəxş etdiyi lütfüdür. Mülk: sözünün mənası, Mülk Sənindir - deməkdir. Yəni: Hər şeyin sahibi təkcə Allahdır. (لَا شَرِيكَ لَكَ) [Lə şəriykə lək] "Sənin şərikin yoxdur!". Yəni: Uca Allaha aid olan kamil sifətlərində, mülkündə, yaratmada, idarə etmədə və ilahlıqda Ona şərik ola bilməcək heç kimsə yoxdur.

İbn Useymin, "Məcmu Fətəva va Rasəil" (22/96). Mətn müxtəsər (xülasə) şəkildə verilmişdir.

Ehramda olan şəxs, ehramdan çıxana qədər ehramda qadağan olunan şeylərdən çəkinməsi vacibdir.

## Dördüncü: Ehramda olarkan edilməsi qadağan olan əməllər.

Ehramda olarkan edilməsi qadağan olan əməllər aşağıdakılardır:

Bədənin hər hansı bir yerindəki tükü qırxmaq, kəsmək və ya yolmaq.

Əl və ya ayaq dırnaqlarının bir qismini və ya hamısını kəsmək.

Başın ona yapışan örtüklə örtülməsi. Məsələn: Başa: papaq, baş örtüyü, əmmamə, ehram geyiminin (ridanın) bir hissəsinin, dəsmal, yorğan yaxud karton və ya başı örtmək məqsədilə istifadə olunan başqa bir şey qoymaq. Bunlar yalnız kişilərə aiddir, qadınlara şamil olunmur.

Bədənə uyğun biçimdə tikilmiş, gündəlik həyatda geydiyimiz paltarları geyinmək. Məsələn: Bədən əzalarına uyğun biçimdə tikilmiş libas, şalvar, köynək, corab və əlcək geyinmək. Bunlar kişilərə aiddir, qadınlara deyil. Qadınlara aidd olanlar isə aşağıdakılardır:

Qadının ehramda ikən niqab ilə üzünü yaxud gözlərini örtməsi və ya niqaba bənzər şeylər geyinməsi. Lakin qadının, naməhrəm kişilərin qarşısında, hətta niqab üzünə toxunsa belə, üzünü adətən örtdüyü örtüklə örtməsi vacibdir. Örtüyün

üzə toxunmaması üçün başına bir bağ (sarğı) və ya buna bənzər bir şey qoyması şəriətdə məqbul sayılmır. Çünki bunu caiz edən hər hansı bir dəlil yoxdur.

Qadının əllərinə əlcək geyinməsi. Lakin naməhrəm kişilərin yanında əllərini əbasının (çadranın) içinə qoyaraq örtməsi vacibdir.

Bədənə və ya ehram libasına ətir vurmaq.

Quruda yaşayan ov heyvanını öldürmək və ya onu öldürməsə belə ovlamaq.

Özü və ya başqası üçün elçi düşmək (nişan etmək).

Nikah bağlamaq.

Cinsi əlaqədə olmadan öpüşmək və şəhvətlə toxunmaq kimi qadınla yaxınlıq etmək.

Cima etmək. Yəni: Övrət yerindən yaxınlıq etmək.

***

## Beşinci: Tavafın edilmə qaydası (sifəti).

Ehramda olan şəxs, Məscidul-Harama daxil olarkən, sağ ayağını birinci atması və məscidə daxil olarkən edilən duanı oxuması sünnədir. Bu barədə varid olan ən səhih dua isə belədir:"

(اللَّهُمَّ افْتَحْ لِي أَبْوَابَ رَحْمَتِكَ) [Allahumməftəh liy əbvabə rahmətikə] "Allahım! Öz mərhəmət qapılarını mənim üçün aç!". "Bu dua istənilən məscidə daxil olarkən deyilir, yalnız Məscidül-Harama məxsus deyil.

Tavafa başlamaq istədikdə, təlbiyəni dayandırır və idtiba edir. İdtibanın edilmə qaydası belədir: Ehramın ortasını sağ qoltuğunun altından keçirir, uclarını isə sol çiyninin üstünə qoyur. Təvafı bitirdikdən sonra ehram libasını təvafdan əvvəlki vəziyyətinə qaytarır. Çünki idtiba yalnız təvaf əsnasında edilir.

Sonra Həcərul-Əsvadə (qara daşa) tərəf irəliləyir, ona sağ əli ilə toxunur və onu öpür. Əgər onu öpmək mümkün olmazsa, sağ əli ilə toxunur və əlini öpür. Əgər əli ilə toxunmaq da mümkün olmazsa, əlindəki əsa və ya buna bənzər bir şeylə ona toxunur və o əşyanı öpər. Əgər bu da mümkün olmazsa, bu zaman Həcərul-Əsvadə tərəf dönüb əlilə ona işarə edir, lakin əlini öpmür. Ən əfzəl olanı isə insanlara zərər verməmək və həmçinin insanların da ona zərər verməsinin qarşısını almaq məqsədi ilə Həcərul-Əsvadin yanında izdiham yaratmamaqdır.

Həcərul-Əsvadə toxunarkən və ya ona işarə edərkən (اللهُ أَكْبَرُ) [Allahu Əkbər] "Allah ən böyükdür" – deyir.

Sonra sağ tərəfə dönüb, Kəbəni sol tərəfinə alarqa təvafa başlayır. Yəmən küncünə çatdıqda ona toxunur, lakin öpmür. Əgər toxunmaq mümkün olmazsa, bu zaman ona toxunmaq üçün orada izdiham yaratmır və əlilə də ona işarə də etmir.

Yəmən küncü ilə həcərul-əsvad arasında:
(رَبَّنَا آتِنَا فِي الدُّنْيَا حَسَنَةً وَفِي الْآخِرَةِ حَسَنَةً وَقِنَا عَذَابَ النَّارِ)

[Rabbənə atinə fid-dunyə həsənə-tən və fil-axirati həsənətən və qınə azə-bən-nər] - "Ey Rəbbimiz! Bizə dünya-da da yaxşı-lıq [gözəl nemətlər] ver, axirətdə də yaxşılıq [Cənnət] ver və bizi Odun [Cəhənnəmin] əza-bından qoru" – deyərək dua edir.

Hər dəfə Həcərul-Əsvadin yanından keçərkən əlilə ona işarə edir və (اللهُ أَكْبَرُ) [Allahu Əkbər] “Allah ən böyükdür” – deyir.

Təvafının qalan hissəsində isə istədiyi zikri, duanı edə bilər və Quran oxuya bilər.

Təvafın birinci üç dövrəsində rəmil etmək sünnədir. Rəmil: Qısa addımlarla sürətli yeriməkdir. Təvafın qalan dörd dövrəsində isə rəmil edilmir, insan sadəcə adi gedişi ilə yeriyir.

Təvafı tamamladıqdan sonra İbrahim məqamına yaxınlaşır və bu ayəni oxuyur:

﴿...وَٱتَّخِذُواْ مِن مَّقَامِ إِبۡرَٰهِـۧمَ مُصَلّٗىۖ...﴾،

(... وَاتَّخِذُوا مِنْ مَقَامِ إِبْرَاهِيمَ مُصَلّىً ...)

[Vattəxizu min məqami İbrahima musalla]

“İbrahimin durduğu yeri namazgah (namaz qılınacaq yer) edin”. (Bəqərə 2 surəsi, ayə 125). Sonra, əgər mümkün olarsa, İbrahim məqamının arxasında iki rükət namaz qılır. Əgər orada namaz qılmaq mümkün olmazsa, o zaman bu namazı Məscidul-Haramın istənilən yerində qıla bilər. Birinci rükətdə Fatihə surəsindən sonra bu surəni oxuyur:

﴿قُلۡ يَٰٓأَيُّهَا ٱلۡكَٰفِرُونَ﴾

De: “Ey kafirlər!" (Kəfirun 109 surəsi, ayə 1). İkinci rükətdə isə Fatihə surəsindən sonra bu surəni oxuyar:

﴿قُلۡ هُوَ ٱللَّهُ أَحَدٌ﴾.

De: “O Allah Təkdir!". (İxlas 112 surəsi, ayələr 1-4).

## Altıncı: Səyin edilmə qaydası (sifəti):

Təvafı və İbrahim məqamının arxasında iki rükət namazı tamamladıqdan sonra səyi (Səfa ilə Mərvə təpələri arasındakı yürüşü) yerinə yetirmək üçün səyi sahəsinə yönəlir. Səfa təpəsinə yaxınlaşanda bu ayəni oxuyur:

﴿إِنَّ ٱلصَّفَا وَٱلۡمَرۡوَةَ مِن شَعَآئِرِ ٱللَّهِ...﴾

(إِنَّ الصَّفَا وَالْمَرْوَةَ مِنْ شَعَائِرِ اللَّه ...)

[İnnəs-safə val-marvatə min şəairilləh]

(Ey möminlər!) Həqiqətən, Səfa və Mərvə Allahın əlamətlərindəndir (ibadət nişanələrindəndir). (Bəqərə 2 surəsi, ayə 158). Sonra belə deyir:

«أَبْدَأُ بِمَا بَدَأَ اللهُ بِهِ».

"أَبْدَأُ بِمَا بَدَأَ اللهُ بِهِ" [Əbdəu bimə bədə Allahu bihi] “Mən, Allahın başladığı ilə başlayıram!”[1].

Sonra Səfa təpəsinə qalxar, Kəbəni və ya Kəbənin istiqamətini görə biləcəyi yerə qədər yüksələr sonra qibləyə tərəf dönər, Allahın tək olduğunu təsdiq edər, təkbir gətirərək belə deyir:

---

[1] Hədisi Müslim (1218) rəvayət etmişdir.

«لَا إِلَهَ إِلَّا اللهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ، لَهُ الْمُلْكُ وَلَهُ الْحَمْدُ، وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، لَا إِلَهَ إِلَّا اللهُ وَحْدَهُ، أَنْجَزَ وَعْدَهُ، وَنَصَرَ عَبْدَهُ، وَهَزَمَ الْأَحْزَابَ وَحْدَهُ»، ثُمَّ دَعَا بَيْنَ ذَلِكَ. قَالَ مِثْلَ هَذَا ثَلَاثَ مَرَّاتٍ.

(لَا إِلَٰهَ إِلَّا اللَّهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ، لَهُ ٱلْمُلْكُ وَلَهُ ٱلْحَمْدُ، وَهُوَ عَلَىٰ كُلِّ شَيْءٍ قَدِيرٌ، لَا إِلَٰهَ إِلَّا اللَّهُ وَحْدَهُ، أَنْجَزَ وَعْدَهُ، وَنَصَرَ عَبْدَهُ، وَهَزَمَ ٱلْأَحْزَابَ وَحْدَهُ)

[Lə ilahə illəllahu vahdəhu lə şərikə lə-hu, ləhul-mulku va ləhul-həmdu va huvə alə kulli şeyin qadir. Lə ilahə illəllahu vahdəhu, əncəzə va'dəhu va nəsara abdə-hu va həzə-məl-əhzabə vəhdəhu] "Allahdan başqa haqq məbud yoxdur, O təkdir, Onun şəri-ki yoxdur. Mülk Onundur və həmd Onadır! O hər şeyə Qadirdir. Allahdan başqa haqq məbud yoxdur, O təkdir. Allah vədini yerinə yetirdi, quluna kömək etdi və (düşmənlərdən olan) dəstələri tək Özü məğlub etdi!". Sonra bu sözlər arasında dua edər və bu sözləri üç dəfə təkrar oxuyar[1].

Sonra Səfa təpəsindən Mərvaya doğru yeriyərək enir. Yaşıl işarəyə (dirəyə) çatdıqda sürətli addımlarla səy edər. İkinci yaşıl işarəyə çatdıqda isə yenidən adi yerişi ilə yeriməyə davam edər. Qadınların burada sürətli addımlarla yeriməsi isə şəriətə uyğun deyildir.

Mərva təpəsinə çatdıqda, Səfa təpəsində etdiyi əməllərin eynisini Mərva təpəsində təkrar edir. (Paraqraf: 2).

---

[1] Hədisi Müslim (1218) rəvayət etmişdir.

Sonra Mərva təpəsindən Səfaya doğru yeriyərək enir. Yaşıl işarəyə (dirəyə) çatdıqda sürətli addımlarla səy edər. İkinci yaşıl işarəyə çatdıqda isə yenidən adi yerişi ilə yeriməyə davam edər.

Beləcə, yeddi şovt (dövrə) tamamlanana qədər davam edir. Səfadan Mərvayə getməsi bir şovt, Mərvadan Səfaya qayıtması isə başqa bir şovt sayılır.

Səy əsnasında istədiyi zikri, duanı edə bilər və Quran oxuya bilər.

Yeddinci: Saçları qırxmaq və qısaltmaq qaydası (sifəti).

Ümrə edən şəxs təvafını və səyini tamamladıqda, əgər kişi isə saçını tamamilə qırxması və ya qısaltması vacibdir. Sünnə isə saçın qırxılması və ya qısaldılması başın bütün hissələrini əhatə etməsidir.

Saçın tam qırxılması, qısaltmaqdan daha əfzəldir. Lakin həcc vaxtı yaxın olub və saçın yenidən uzanmasına kifayət qədər zaman yoxdursa, bu halda saçı qısaltmaq daha əfzəl sayılır.

Qadına gəlincə isə o, saçının uclarından bir barmaq ucu (bir falanq) qədər kəsməlidir.

Amma ifrad və ya qiran həcci edən şəxs, yalnız bayram günü Camaratul-Aqəbəyə (Böyük Camarata) daş atdıqdan sonra saçını kəsməlidir.

Beləliklə, ümrə edən şəxs ümrəsini tamamlamış olur. Eyni şəkildə, təmmətü həcci edən hacı da həccinin ümrəsini tamamlamış olur.

## Həccin edilmə qaydası (sifəti).

### Birinci: Həcc üçün ehrama girmək:

Həcc etmək istəyən bir şəxs üçün sünnə olan budur ki, Zilhiccə ayının səkkizinci günü – Tərviyə günü – duha vaxtı, əgər Məkkədədirsə və ya miqat məntəqələrinin içindədirsə, olduğu yerdə ehrama girsin. Əgər miqatın xaricindədirsə, keçdiyi miqat məntəqəsində ehrama girməlidir.

Həcc üçün ehrama girərkən, ümrə üçün ehrama girən zaman etdiyi kimi qüsl almaq, ətir sürtmək və namaz qılmaq əməlini yerinə yetirir. Daha sonra həcc üçün ehram niyyəti edib təlbiyə gətirər. Həccdə təlbiyə etmək forması, ümrədə təlbiyə etmək kimidir. Lakin burada: (لَبَّيْكَ ٱللَّهُمَّ عُمْرَةً) [Ləbbeykəllahummə ümratən] (Ey Allahım! Mən ümrə ziyarəti üçün Sənin hüzurunda-yam) – əvəzinə: (لَبَّيْكَ ٱللَّهُمَّ حَجّاً) [Ləbbeykəllahummə həccən] (Ey Allahım! Mən həcc ziyarəti üçün Sənin hüzurunda-yam) – deyir.

Ehrama girmək istəyən şəxs, ibadətini tamamlamasına mane olacaq bir çətinliyin baş verməsindən qorxarsa, ehrama girərkən belə şərt qoyması caizdir: (... وَإِنْ حَبَسَنِي حَابِسٌ فَمَحَلِّي حَيْثُ حَبَسْتَنِي) [... Va in həbsəni həbisun fə məhəlli həysu həbəstəni] (... Əgər maneə ilə qarşılaşsam, ehramdan çıxdığım yer məni saxladığı yerdir). Şərt qoyduqdan sonra əgər ona ibadətini tamamlamasına mane olan bir

hal baş verərsə, o halda ehramdan çıxa bilər və ona heç bir günah olmaz.

Sonra çoxlu təlbiyə deyir:

(لَبَّيْكَ ٱللَّهُمَّ لَبَّيْكَ، لَبَّيْكَ لَا شَرِيكَ لَكَ لَبَّيْكَ، إِنَّ ٱلْحَمْدَ وَٱلنِّعْمَةَ لَكَ وَٱلْمُلْكُ لَا شَرِيكَ لَكَ)

[Ləbbeykəllahummə ləbbeyk, ləb-beykə lə şəriykə ləkə ləbbeyk, innəl-həm-də vən-ni'mətə, ləkə vəl-mulkə, lə şəriykə lək]

"Hüzurundayam, Allahım hüzurunda-yam! Hüzurundayam, Sənin şərikin yoxdur, hüzurundayam! Həmd, Nemət və mülk Sənə məxsusdur. Sənin şərikin yoxdur!". Kişi bu təlbiyəni yüksək səslə söyləyir. Qadın da yanında naməhəram kişilər olmadığı müddətcə eyni şəkildə yüksək səslə söyləyir. Ehramda olan şəxs, xüsusilə hal və zaman dəyişdikdə, məsələn: yüksək yerə qalxdıqda, aşağı endikdə, gecə və ya gündüz girdikdə, təlbiyəni çox etməlidir.

Təlbiyə, ehrama girdiyi andan etibarən bayram günü Camaratul-Aqəbəyə (Böyük Camarata) atmağa başlayana qədər demək şəriətə müvafiqdir.

Ehramda olan şəxs, ehramdan çıxana qədər ehramda qadağan olunan şeylərdən çəkinməsi vacibdir.

***

## İkincisi: Minada gecələmək:

Sonra həcc edən şəxsin, zilhiccə ayının səkkizinci günü Minaya getməsi, orada zöhr, əsr, məğrib, işa

və sübh namazlarını, hər namazı öz vaxtında birləşdirmədən (cəm etmədən), qısaldaraq qılması sünnədir. Çünki Peyğəmbər, sallallahu aleyhi va səlləm, Minada namazları qısaldaraq qılardı, lakin birləşdirməzdi.

## Üçüncüsü: Ərafada dayanmaq və və Müzdəlifədə gecələmək:

Zilhiccə ayının doqquzuncu günü olan Ərafa günü günəş doğduqda, Minadan Ərafaya getmək üçün yola düşər. Ərafaya çatdıqda əgər mümkündürsə, zəval vaxtına qədər Nəmra məscidində gözləyər. Əgər bu mümkün olmazsa, heç bir qəbahət yoxdur. Çünki Nəmira məscidində gözləmək sünnədir.

Günəş zəvaldan batmağa doğru meyil etdikdə (zöhr vaxtı daxil olduqda), Peyğəmbərin, sallallahu aleyhi va səlləm, etdiyi kimi, zöhr və əsr namazlarını, hər namazı iki rükət olmaqla, əsri qabağa çəkərək zöhr vaxtında, cəm edərək qılmalıdır.

Namazdan sonra Uca Allahı zikr etməklə, dua və yalvarışla məşğul olar. Əllərini qaldıraraq qibləyə yönəlir və istədiyi duaları edir.

Peyğəmbərin, sallallahu aleyhi va səlləm, bu möhtəşəm məqamda ən çox etdiyi dua bu idi:

(لَا إِلَٰهَ إِلَّا ٱللَّهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ، لَهُ ٱلْمُلْكُ وَلَهُ ٱلْحَمْدُ، وَهُوَ عَلَىٰ كُلِّ شَيْءٍ قَدِيرٌ

[Lə iləhə illə-l-lahu vahdəhu lə şərikə ləh. Ləhu-l-mulku va ləhul-həmdu va huvə alə kulli şeyin qadir] - "Allahdan başqa ibadətə layiq məbud yoxdur, O tək-dir, Onun şəri-ki yoxdur. Mülk Onundur və həmd Onadır! O hər şeyə Qadirdir!".

Əgər yorğunluq hiss edərsə və istirahət etmək üçün dostları ilə faydalı söhbətlər etməklə yaxud həmin gündə ümid hissini gücləndirmək məqsədilə bacardığı qədər faydalı kitablardan, xüsusilə Allahın kərəmi və bol nemətləri barədə olanlardan, oxumaqla məşğul olmaq istəsə, bu yaxşı olar. Sonra yenidən Allaha yalvarışa və duaya qayıtmalı, günün son anlarını dua ilə keçirməyə diqqət yetirməlidir. Çünki ən xeyirli dua, Ərəfə günündə edilən duadır.

Ərafa günü günəş batdıqdan sonra Müzdəlifəyə doğru yola çıxmalıdır.

Müzdəlifəyə çatdıqda məğrib namazını üç rükət, işa namazını isə iki rükət olmaqla cəm edərək qılmalıdır.

Əgər Müzdəlifəyə gecə yarısından sonra çatacağından qorxarsa, o zaman Müzdəlifəyə çatmazdan əvvəl namazı qılmalıdır. Çünki namazı gecə yarısından sonraya təxirə salmaq caiz deyildir.

Gecəni Müzdəlifədə yatır. Sübh açıldıqda isə azan və iqamə ilə fəcr namazını erkən qılır.

Sonra Məşərulharama yönəlir, orada dan yerinin açılması aydın olana qədər Allahı tövhid ilə təkləşdirir, təkbirlər (Allahu Əkbər) deyər və istədiyi duaları edir. Əgər Məşərulharama getmək

mümkün olmazsa, elə olduğu yerdə dua edir. Çünki Peyğəmbər, sallallahu aleyhi va səlləm, belə buyurmuşdur:

«وَقَفْتُ هَاهُنَا وَجَمْعٌ كُلُّهَا مَوْقِفٌ».

"Mən burada dayandım, lakin Müzdəlifənin hər bir yeri dayanmaq üçün icazəlidir". Zikr və dua zamanı qibləyə yönəlmiş və əllərini qaldırmış halda olmalıdır.

## Dördüncü: Bayram günü ediləcək əməllər:

Hava tam aydınlaşanda, günəş çıxmadan əvvəl Müzdəlifədən Minaya doğru yola çıxar və Vadi Muhəssir adlanan yerdən keçərkən tələsər.

Minaya çatdıqda, Məkkəyə ən yaxın olan Camaratul-Aqəbəyə (Böyük Camarata) ard-arda olmaqla, hər biri təxminən bir xurma çəyirdəyi böyüklüyündə olan yeddi ədəd daş atır və hər daş atarkən təkbir (Allahu əkbər) deyər.

Sonra, əgər mümkün olarsa, həcc qurbanını kəsir.

Sonra, əgər həcc edən kişidirsə, saçını qırxır və ya qısaldır. Saçı qırxmaq daha fəzilətlidir. Qadınlar isə saçlarını qısaldırlar, çünki qadınlara başlarını qırxmaq (tıraş etmələri) caiz deyildir.

Əgər Camaratul-Aqəbəyə (Böyük Camarata) daş atıb, saçını qırxarsa artıq birinci təhəllülü (ehramdan çıxmanın birinci mərhələsi) tamamlamış sayılır. Bu halda ona, qadınlarla ilə yaxınlıqdan başqa hər şey halal olur.

Sonra Məkkəyə gəlir və ifadə təvafını (həccin təvafını) edir. Əgər Təmmətü həcci edirsə, ifadə təvafını ardınca həccin səyini edir. Əgər ifrad və ya qiran həcci edirsə və qudum təvafından sonra səy etməmişdirsə, bu zaman təvafın ardınca həccin səyini edir. Təvafı və səyi ona necə rahat olarsa, gecəyə və ya ertəsi günə təxirə sala bilər.

## Beşinci: Təşriq (Zilhiccə ayının 11-ci, 12-ci və 13-cü) günlərində ediləcək əməllər:

Əgər Camaratul-Aqəbəyə (Böyük Camarata) daş atıb, saçını qırxarsa, təvaf və səy etsə, artıq tamamilə ehramdan çıxmış sayılır. Bu halda ona, qadınlarla cinsi əlaqə də daxil olmaqla, bütün ehram qadağaları halal olur.

Sonra Minaya qayıdır və Zilhiccə ayının on birinci və on ikinci gecələrini orada keçirir. Əgər yubanmaq istəyirsə, on üçüncü gecəni də orada keçirir.

Günəş zəvaldan batmağa meyl etdikdən (zöhr vaxtı girdikdən) sonra üç camarata daş atmalıdır.

Zilhiccə ayının on birinci gün Məkkəyə ən uzaq, Xeyf Məscidinə isə ən yaxın olan birinci camarata ard-arda olmaqla yeddi daş atır və hər daş atdıqda (Allahu Əkbər) deyir. Sonra bir qədər irəliləyir və istədiyi qədər uzun-uzadı dua edir. Əgər uzun müddət ayaq üstə dayanmaq və dua etmək ona çətin gələrsə, sünnəti yerinə yetirmək üçün heç olmasa az da olsa, ona asan gələn bir dua etməlidir.

Sonra eyni şəkildə orta camarata daş atır və sonra dua edir.

Sonra eyni şəkildə Camaratul-Aqəbəyə (Böyük Camarata) daş atır, amma sonra dua etmədən oradan ayrılır.

Sonra on ikinci gündə, on birinci gündə olduğu kimi, üç camarata daş atır. Daş atma mərasimini bitirdikdən sonra əgər istəsə, tələsib Minadan çıxa bilər.

Əgər istəsə, yubanır və on üçüncü gecəni də orada keçirir, günəş zəvaldan batmağa meyl etdikdən (zöhr vaxtı girdikdən) sonra yuxarıda qeyd edildiyi kimi üç camarata daş atır. Gecikdirmək isə daha fəzilətlidir.

On ikinci gün günəş batana qədər Minada qalmaq halı müstəsna olmaqla, on üçüncü gecəni Minada gecələməsi vacib deyil. Amma on üçüncü gecəni Minada keçirərsə, o zaman günəş zəvaldan batmağa meyl etdikdən (zöhr vaxtı girdikdən) sonra üç camaratı daşlayana qədər Minada gecələməsi vacib olar.

Lakin on ikinci gün Minada günəş onun iradəsi xaricində batarsa, məsələn: yola çıxmış, minik vasitəsinə minmiş olsa da, nəqliyyat sıxlığı və s. səbəbindən Minanı tərk etməsi gecikərsə, bu halda onun Minada gecələməsi vacib olmaz. Çünki günəş batana qədər Minada qalması onun öz seçimi ilə olmamışdır.

## Altıncı: Vida təvafı:

Əgər bir şəxs Məkkədən çıxıb vətəninə qayıtmaq istəsə, o zaman Vida təvafını yerinə yetirmədən oradan çıxmamalıdır.

Lakin heyz və nifas halında olan qadınlara vida təvafı vacib deyildir. Həmçinin vida məqsədilə Məscidul-Haramın qapısında dayanması da doğru hesab edilmir. Çünki Peyğəmbərdən, səllallahu ələyhi va səlləm, o halda olan qadınların belə etmələri barədə heç bir rəvayət varid olmamışdır.

Həcc əməllərini başa vurduqdan sonra səfərə çıxmaq istəyən şəxs, Məkkədən çıxmazdan əvvəl, Məkkədə ən sonuncu işini, vida təvafı olmalıdır.

Əgər vida təvafından sonra yoldaşlarını gözləmək, əşyalarını yükləmək və ya yolda lazım olan bir şey almaq üçün bir qədər qalarsa, bu, qəbahətli sayılmaz və səfərini təxirə salmaq niyyəti olmadığı təqdirdə vida təvafını təkrar etməsi vacib deyildir. Lakin səfərini təxirə salmaq istəsə, məsələn: günün əvvəlində səfərə çıxmaq istər, buna görə də vida təvafını edər sonra isə səfəri günün sonuna qədər təxirə salarsa, bu halda vida təvafı təkrar etməsi vacib olar. Çünki vida təvafı Kəbə ilə olan ən son ayrılıq olmalıdır.

***

# Mündəricat

Həccin qısa izahı. .......... 2
Ön söz. .......... 2
Birinci: İbadətin qəbul olunma şərtləri: .......... 2
Birinci: Miqatlarla bağlı hökmlər: .......... 4
İkinci: Həccin növləri və onların hökmləri: .......... 5
Üçüncü: Ehramın edilmə qaydası (sifəti) və onun hökmləri: .......... 6
Dördüncü: Ehramda olarkan edilməsi qadağan olan əməllər. .......... 9
Beşinci: Tavafın edilmə qaydası (sifəti). .......... 10
Altıncı: Səyin edilmə qaydası (sifəti): .......... 13
Həccin edilmə qaydası (sifəti). .......... 16
Birinci: Həcc üçün ehrama girmək: .......... 16
İkincisi: Minada gecələmək: .......... 17
Üçüncüsü: Ərafada dayanmaq və və Müzdəlifədə gecələmək: .......... 18
Dördüncü: Bayram günü ediləcək əməllər: .......... 20
Beşinci: Təşriq (Zilhiccə ayının 11-ci, 12-ci və 13-cü) günlərində ediləcək əməllər: .......... 21
Altıncı: Vida təvafı: .......... 23

az410v3.0 - 06/09/2026